# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №23 (63) • 07.11.2011


AzadliqRadiosu.az®


**Hacıbala Abutalıbov sakinlərin etirazlarını rədd etdi** səh.2

**Azərbaycan Türkiyədən öndə, İran və Ermənistandan geridə** səh.3

**Новые компании Алиевых** səh.7

**3500 erməni Avropadan Dağlıq Qarabağa köçəcəkmi?** səh.8

**Prokuroru Youtube-a nə çıxardı?** səh.9

**Norveç qəhrəmanı Azərbaycan qəhrəmanına necə çevrildi?** səh.11

**Moskvada "Ruslara azadlıq!" şüarları** səh.12

**«Eurovision» seçimləri başladı** səh.14


## Məşhur akademik işdən niyə çıxarıldı?



səh.5

## Ölən əsgərin əmisi: «Boğazında, ovcunda kəsik izləri var idi»

Ötən həftə Müdafiə Nazirliyi məlumat yaymışdı ki, Milli Ordunun əsgəri Taleh Hüseynbalazadə oktyabrın 27-də xidmət etdiyi Ağdamın Orta Qərvənd kəndindəki "N" saylı hərbi hissədə cərəyan vurması nəticəsində dünyasını dəyişib. Mərhum əsgərin əmisi Firudin Hüseynbalazadə isə yayılan xəbərə inanmır.

səh.4

"Bizim" deltoplan




Jurnalistləri Müdafiə Komitəsi: **«Əvəz Zeynallı dərhal azad olunmalıdır»** səh.2

Rüstəm İbrahimbəyov: **«Biz uçuruma gedirik!»** səh.6

40 manatlıq texniki baxış neçəyədir: **bizim gördüklərimiz...** səh.10

# Hacıbala Abutalıbov sakinlərin etirazlarını rədd etdi



Noyabrın 4-də Şəmsi Bədəlbəyli və Mirzağa Əliyev küçələrinin 30-a yaxın sakini Bakı meriyasının qarşısında etiraz ediblər. Mülkiyyət hüquqlarının qorunması tələbiylə keçirilən aksiya iştirakçılarını polis mərkəzi küçədən uzaqlaşdırıb. Evləri sökülləcək sakinlər bazar qiymətlərinə uyğun kompensasiya istəyirlər. İcra hakimiyyəti isə sakinlərə 1 kvadratmetr üçün 1500 manat təklif edir. İcra hakimiyyəti qarşısına toplaşan insanlardan 10 nəfəri Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qəbul edib. Təxminən yarım saat davam edən görüş zamanı Hacıbala Abutalıbov sakinlərin etirazlarını rədd edərək, 1500 manatdan artıq kompensasiya verə bilməyəcəyini deyib.

**AzadliqRadiosu.az saytında etiraz aksiyasının video görüntülərinə baxa bilərsiniz.**

# "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallıya qarşı əlavə ittiham irəli sürülüb



**Əvəz Zeynallı**

Bu barədə AzadlıqRadiosuna Ə.Zeynallının vəkili Elçin Sadıqov məlumat verib. Onun sözlərinə görə, daha üç nəfər baş redaktora müxtəlif vaxtlarda barələrində yazılan məqalənin dərc edilməməsi ilə bağlı rüşvət verdiklərini bildiriblər. Elçin Sadıqov onların Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə etdikləri şikayət əsasında Ə.Zeynallıya qarşı Cinayət Məcəlləsinin 311.3.2-ci (rüşvət alma – təkrar törədildikdə) maddəsi ilə əlavə ittiham irəli sürülüb: "İstintaq sirri olduğundan həmin şikayətçi şəxslərin kimliklərini açıqlaya bilmərəm. Bircə onu deyə bilərəm ki, şikayətçilərin hər üçü ictimai şəxslərdir".

"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı oktyabrın 28-də deputat Gülər Əhmədovanın şikayəti əsasında həbs edilib. İttiham təsdiq olunarsa, baş redaktoru əmlakı müsadirə olunmaqla 8 ildən 10 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir. "Xural" qəzetinin əməkdaşları, media təmsilçiləri, hüquq müdafiəçiləri, müxalif siyasi qüvvələr Əvəz Zeynallının həbsinə qəzetə və redaktorun özünə edilmiş təzyiq kimi qiymətləndirirlər.

## Jurnalistləri Müdafiə Komitəsi:

## «Əvəz Zeynallı dərhal azad olunmalıdır!»

Nyu-Yorkda yerləşən Jurnalistləri Müdafiə Komitəsi «Xural» qəzetinin baş redaktoru Əvəz Zeynallının həbsindən narahatdır və Azərbaycan hakimiyyətini jurnalisti dərhal azad etməyə çağırır. Əvəz Zeynallı oktyabrın 28-də həbs olunub, haqqında 3 aylıq həbs-qətimkan tədbiri seçilib. Jurnalist deputat Gülər Əhmədovanın şikayəti əsasında həbs edilib. O, rüşvət tələb etməkdə ittiham olunur. İttiham təsdiqlənərsə, onu 12 ilədək həbs cəzası gözləyir. Jurnalistləri Müdafiə Komitəsi isə bildirir ki, hələ sentyabr ayında jurnalist öz «Xural» qəzetində deputat Gülər Əhmədovanın ona pul təklif etdiyini yazırdı: «Azərbaycan hakimiyyətinin siyasi motivli ittihamlar irəli sürmək üzrə uzun tarixçəsi var». Komitənin Avropa və Orta Asiya üzrə proqram koordinatoru Nina Ognianova belə deyib: «Biz qorxuruq ki, Əvəz Zeynallı və onun «Xural» qəzeti müstəqil yazılarına görə cəzalandırılıb. O, azad edilməlidir».

# AzadlıqRadiosu canlı - indi bütün mobil telefonlarda...

**Əziz "Azadlıq" Sevərlər!**

Bunun üçün mobil telefonlarınız GPRS və ya Wi Fi İnternet şəbəkələrini dəstəkləməlidir. Aşağıdakı sadə prosedurları etsəniz, günün 24 saatı radiomuzu canlı dinləyə biləcəksiniz. Qeyd edək ki, bütün proses 1-2 dəqiqədən çox çəkmir. Mobil telefonlar üçün İnternet Radio proqramını aşağıdakı ünvandan endirin.Mobil telefonlar üçün internet radio proqramını aşağıdakı ünvandan endirin.

***http://azadlig.info/radio.zip***

Proqramı zip-dən azad edib - radio.jar faylını USB və ya Bluetooth vasitəsilə mobil telefonunuza yerləşdirib yükləyin. Bu zaman telefonunuzda aşağıdakı nişanlı proqram peyda olacaq.




Onu işə salın. Aşağıdakı şəkildəki proqram açılacaq.




Play-i basın, bir neçə saniyədən sonra AzadlıqRadiosunu canlı dinləyə bilərsiniz. Proqramı idarə eləmək çox sadədir.

Qeyd edək ki, internet radio proqramını siz internetdən birbaşa telefona da yükləyə bilərsiniz. Bunun üçün aşağıdakı ünvana mobil telefonunuzdan daxil olun:

***http://azadlig.info/radio.jar***

Əgər sizin mobiliniz «Android», «Apple» və ya «BlackBerry» sistemli telefondursa, nəzərinizə çatdırırıq ki, bu modellərin özünün internet radio sistemləri vardır.

GPRS mobil internetdən istifadə edirsinizsə sizə ucuz başa gəlməsi üçün yaxşı olar ki, qabaqcadan GPRS trafik paketi alasınız («Azadlıq»ın dalğası 32 Kbit/san ilə yayılır).

# Azərbaycan Türkiyədən öndə, İran və Ermənistandan geridə



Arxiv foto

**BMT-nin İnkişaf Proqramı – UNDP-nin 2011-ci ilin İnsan İnkişafı İndeksində 187 dövlət arasında 91-ci olan Azərbaycan 0.7 balla Türkiyədən (92) öndə, Gürcüstan (75), Ermənistan (86), İrandan (88) isə geridədir. Azərbaycan 2010-cu ilə görə bu indeksdə cüzi də olsa irəliləyib, o zaman 0.69 olan balı 0.7-yə çatıb.**

İnsan inkişafı indeksi ömür uzunluğu, təhsil və səhiyyə imkanları, adambaşına düşən gəlirlər, ətraf mühitin təsirləri, yoxsulluq və həyatdan razılıq kimi göstəricilərə əsasən hazırlanıb. Bu göstəricilər isə ya sorğular, ya da müxtəlif illəri əhatə edən rəsmi statistikadan götürülüb.

### İNSAN İNKİŞAFI İNDEKSİ

Məsələn, indeksə görə 91-ci olan Azərbaycanda insanların orta ömür uzunluğu 70.7 yaşdır. Azərbaycanlı ortalama 8.6 il təhsil alır, adambaşına düşən illik gəliri də 8 min 600 dollardır. Azərbaycanlıların 99.5 faizi savadlıdır, hər 11.1 şagirdə bir müəllim düşür. Amma BMT İnsan İnkişafı İndeksini Bərabərsizliklər İndeksi də əlavə edir və bu zaman ölkələrin indeksdə tutduğu yerlər dəyişir. Məsələn, ABŞ 4-cü yerdən birdən-birə 25-ci yerə, Koreya 15-ci yerdən 32-ci yerə, İsrail 17-ci yerdən 25-ci yerə düşür. Azərbaycan isə bərabərsizliklər nəzərə alınanda 11 pillə irəliləyir və 80-ci sıraya qalxır. İndeksdə onsuz da Azərbaycandan öndə olan Ermənistan bu vaxt daha da qabağa gedir və 73-cü olur.

### GENDER BƏRABƏRSİZLİYİ İNDEKSİ

Azərbaycan gender bərabərsizliyi indeksində 50-ci yerdədir. Hesabata görə, azərbaycanlı qadınların 65.5 faizinin ən azından orta təhsili var və 59.5 faizi işləyir. Ümumilikdə Gender bərabərsizliyi İndeksində ən yaxşı ölkə İsveç, ən pisi isə Yəmən sayılır.

### ÇOXÖLÇÜLÜ KASIBLIQ İNDEKSİ

Çoxölçülü kasıblıq indeksinə görə isə, Azərbaycanda 461 min nəfər kasıb sayılır, yəni əhalinin 5.3 faizi. Üstəlik əhalinin 12.5 faizi isə kasıblıq həddinə yaxın sayılır. Hesabata görə, azərbaycanlıların ancaq 1 faizi dünya üzrə mütləq yoxsulluq - aclıq həddi sayılan həddə yaşayır. Yəni günə 1.25 dollardan az qazanır. Amma ölkə üzrə qiymətlər nəzərə alınanda əhalinin 15.8 faizi isə minimum istehlak zənbilindən az qazanır. Bu indeksə görə, dünyada ən kasıb ölkə Nigerdir. Həmin ölkədə əhalinin 92 faizi kasıb sayılır.

### ƏTRAF MÜHİT, SAĞLAMLIQ

Bundan başqa, hesabatda ətraf mühitlə bağlı insan inkişafı rəqəmləri də var. Bu hesablamalara görə, Azərbaycanda 5 yaşına qədər uşaqların 26.8 faizi, yəni hər 4 uşaqdan biri qısa boyluluqdan, 8.4 faizi – hər 12 nəfərdən biri isə çəki azlığından əziyyət çəkir. Sənəddə qeyd edilir ki, Azərbaycanda ildə 212 nəfər suyun, 307 nəfər isə havanın çirkli olmasına görə tutulduğu xəstəliklərdən ölür. Ətraf mühitin təsiri və səhiyyə imkanları nəzərə alınanda azərbaycanlıların ömür uzunluğu 70.7-dən 59-a düşür. Əhalinin sayına gəldikdə isə, hesabata görə, artım templəri növbəti illərdə 1.5 faizdən 1.2 faizə düşəcək və 2015-ci ildə Azərbaycan əhalisi 10.8 milyon olacaq.

### HƏYATDAN RAZILIQ

BMT-nin hesablamalarına görə, 10 ballıq sistemlə azərbaycanlıların həyatından razılığı 4.2 balla qiymətləndirilib. Azərbaycan əhalisinin 65.4 faizi havanın təmizliyindən razılıq edir, 51 faizi suyun təmizliyindən. Ümumilikdə İnsan İnkişafı İndeksində ilk sıraları Norveç, Avstraliya və Hollandiya tutur. Siyahıda ən son yerlərdə isə Konqo, Niger, Burundi qərarlaşır.

***İlkin Məmmədov***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Hüseynbala Səlimov: **Siyasi məhbus probleminin həlli varmı?**



Çingiz Sultansoy: **Həsəd aparılası bankir, aparılmayası vəzifə**



İqtisadiyyat: **Mini NABUCCO-nun böyüklüyü**



Sevda İsmayıllı: **Hürməyə qoymurlar və ya mənə kompot verin**



**Putindən jurnalistlərə 32000 dollarlıq mükafat**

# Ölən əsgərin əmisi: «Boğazında, ovcunda kəsik izləri var idi»

Ötən həftə Müdafiə Nazirliyi məlumat yaymışdı ki, Milli Ordunun əsgəri Taleh Hüseynbalazadə oktyabrın 27-də xidmət etdiyi Ağdamın Orta Qərvənd kəndindəki "N" saylı hərbi hissədə


AZƏRBAYCAN RESPUBLİKASI
MÜDAFİƏ NAZİRLİYİ
HƏRBİ HİSSƏ
190

Şəki Rayon Hərbi Komissarına

BILDIRIŞ

Xahiş edirəm Şəki şəhər H.Əliyev 27/7 ünvanda yaşayan Vətandaş Məmmədəliyev Tehmur Hüseynbala oğluna bildirəsiniz ki, oğlu əsgər Hüseynbalazadə Taleh Tehmur oğlu 27.10.2011-ci il tarixdə Ağdam rayonu Sarıcalı yaşayış məntəqəsi istiqamətində bölüyün dayaq məntəqəsində gündəlik fəaliyyətin icrası zamanı, əsgər yoldaşını elektrik cərəyanı vurduğunu görərək, cərəyanı elektrik açarından ayırmaq istəyərkən elektrik cərəyanının vurması nəticəsində «elektrik vurma » xəsarəti alaraq hadisə yerində vəfat etmişdir.

ƏHMƏDOV
polkovnik-leytenant
190 SAYLI HƏRBİ HİSSƏ KOMANDİRİ

Milli Ordunun əsgəri Taleh Hüseynbalazadənin ölümüylə bağlı bildiriş

cərəyan vurması nəticəsində dünyasını dəyişib. Mərhum əsgərin əmisi Firudin Hüseynbalazadə isə yayılan xəbərə inanmır. Deyir ki, mərhumun üstündəki izlər onun cərəyan vurmadan çox işgəncə ilə ölməsindən xəbər verir:«Bunların dediyinə görə, yoldaşını cərəyan vurub, bu da qaçıb paya ilə «rubilnik»i aşağı salmaq istəyib. Paya yaş olduğuna görə cərəyan vurub öldürüb. Ancaq meyiti açmışıq, yumuşuq, meyitin üstündə cərəyan izi yox idi. Boğazında kəsiklər var idi, ovcunda bıçaq kəsiyi izləri var idi, qarnını yarıb orqanlarını da götürmüşdülər».

F.Hüseynbalazadə deyir ki, əgər hətta əsgər cərəyan vurmasından ölübsə də, buna görə də hərbi hissə rəhbərliyi cəzalanmalıdır: «Mən sənə montyor verməmişəm, bu uşağın ixtisası montyor deyil. Sən niyə qoyursan ki, o, yüksək gərginlik altına girsin?».

**HƏFTƏ İTKİ XƏBƏRLƏRİ İLƏ BAŞLADI**

Bu həftə də Müdafiə Nazirliyinin daha iki əsgərin xəstəlikdən ölməsi barədə yaydığı xəbərlə başlandı. Məlumata görə, Gəncədəki hərbi hissələrdən birində qulluq edən 18 yaşlı Ruslan Kərimov hemorragik vaskulitdən, Ağcabədidəki hərbi hissələrdən birində qulluq edən 18 yaşlı Röyal Ağayev isə pnevmoniyadan dünyasını dəyişib.

Gəncədəki hərbi hospitalın rəisi Şahrəddin Balacanovdan cəmi 26 günün əsgəri olmuş Ruslan Kərimovun xəstəliyi və müalicəsi barədə məlumat almaq istəsək də, dedi ki, Müdafiə Nazirliyi mətbuat xidmətinin icazəsi olmadan danışa bilməz. Nazirliyin mətbuat xidməti isə hospital rəisinə danışmağa icazə vermədi. Xidmətin rəis müavini Teymur Abdullayev AzadlıqRadiosuna bildirdi ki, əsgərin ölümü ilə bağlı ətraflı məlumat ekspertiza bitdikdən sonra veriləcək.

Müdafiə Nazirliyi Tibb İdarəsinin rəisi Məcid Məsimov bu yaxınlarda jurnalistlərə xəstəliklə əlaqəli dünyasını dəyişən əsgərlər barədə onların həkimləri və müalicə olunduqları hospital rəisləri ilə danışmaqda məhdudiyyət olmadığını demişdi. O, tibbi savadı olmayan mətbuat xidməti əməkdaşındansa belə məsələlərdə hərbi həkimlərin özündən məlumat almağı məqsədəuyğun hesab etmişdi.

**«XƏSTƏ GƏNCLƏR ORDUYA ÇAĞIRILIR»**

«Doktrina» Jurnalistlərin Hərbi Araşdırmalar Mərkəzinin direktoru Cəsur Sümərinli deyir ki, monitorinq apardıqları 10 il ərzində qeyri-döyüş itkisindən ən çox ölənləri 2003-cü ildə müşahidə ediblər – 75 nəfər. 2011-ci ilin başa çatmasına hələ iki ay var, qeyri-döyüş itkilərinin sayı isə onların monitorinqlərinin nəticələrinə görə artıq 88 nəfərdir. Ekspertin fikrincə, bu, qeyri-döyüş itkilərinin kəskin artmasından xəbər verir. C.Sümərinli deyir ki, bu ilin 10 ayı ərzində təkcə xəstəlikdən ölənlərin sayı da əvvəlki illərlə müqayisədə yüksəkdir – 12 nəfər:

«Bunun da səbəbləri konkretdir. Birincisi, hərbi hissələrdəki tibb məntəqələrində təchizat, müayinə və müalicə baxımından vəziyyət yaxşı deyil. Bir çox hallarda gənclər xəstə vəziyyətdə hərbi xidmətə çağırılır. Məsələn, oktyabr ayında xəstəlikdən ölən əsgərlərdən biri cəmi 26 gün idi ki,


Cəsur Sümərinli

hərbi xidmətə çağırılmışdı. İkinci səbəb isə kadrlarla bağlıdır. Orduda peşəkar hərbi tibb kadrı tapmaq çox çətin məsələdir».

Orduda qeyri-döyüş itkiləri ilə bağlı suala Müdafiə Nazirliyindən Teymur Abdullayevin cavabı qısa oldu: araşdırmalar aparılır.

***Esmira Cavadova***

# İmişlidə tavanı daman evlər təmir olunur

İmişlidə döşəməsi çökən, tavanından daman evlərin təmirinə başlanıb. Bu barədə AzadlıqRadiosuna Kür daşqınlarından zərərçəkənlər üçün 1 il əvvəl salınan Allahmədətli qəsəbəsinin sakinləri məlumat veriblər. AzadlıqRadiosu ötən həftə həmin qəsəbədəki problemləri əks etdirən yazı və video vermişdi. Fövqəladə Hallar Nazirliyinin və rayon icra hakimiyyətinin nümayəndələri evlərə baxıblar. Təmir işlərinə başlanması barədə qərar qəbul edilib. Qəsəbə sakini Xanoğlan Aslanov deyir ki, dağılan döşəmələrin təmiri artıq başa çatdırılıb: «Qurban bayramına görə işçilər işləmirlər, amma bayramdan sonra onlar evlərin tavanlarını və damlarını təmir edəcəklər».

Allahmədətli qəsəbəsi İmişli-Kürdəmir yolunun 150-200 metrliyində 1 il əvvəl salınıb. Burada 104 ev olsa da, hazırda 40-a yaxın evdə yaşayış var.

***Maarif Çingizoğlu***

# Məşhur Akademik işdən niyə çıxarıldı?



Rafiq Əliyev

**Bu barədə AzadlıqRadiosuna onun yaxınları məlumat verib. Ona işdən çıxarılması ilə bağlı əmr noyabrın 4-ü Ziyalılar Forumunda iştirakından əvvəl təqdim edilib. Əmri kadrlar şöbəsinin müdiri çatdırıb. Rafiq Əliyev Azərbaycan Dövlət Neft Akademiyasında avtomatlaşdırılmış idarəetmə sistemləri kafedrasının müdiri idi.**

Noyabrın 4-də Beynəlxalq Mətbuat Mərkəzində «Milli Birliyin şərtləri və yolları» mövzusunda keçirilən foruma sədrliyi akademik Rafiq Əliyev edib. Həmin forumda tanınmış ziyalılar ölkədəki ictimai –siyasi vəziyyəti tənqid ediblər. Rafiq Əliyev 70-ə yaxın kitabın, 350-dən çox elmi məqalənin müəllifidir.

<u>ELDAR NAMAZOV:</u> **«BU, BÜTÜN ZİYALILARA QARŞI TƏZYİQ KAMPANİYASIDIR»**

Ziyalılar Forumunun təşkilatçılarından Eldar Namazov hesab edir ki, Rafiq Əliyevin işdən çıxarılması onun ictimai-siyasi fəallığı ilə bağlıdır. O, bura akademikin gənclərin həbsi ilə bağlı tənqidi fikirlərini də aid edir. E.Namazov belə bir qərarın yuxarıdan verildiyini düşünür: «Əminəm ki, Rafiq Əliyevin işdən çıxarılma əmri rektorun şəxsi qərarı olmayıb. Çünki dünyada tanınan bir alim barəsində verilən bu qərar Akademiya üçün də biabırçı bir qərardır. Yəqin ki, Akademiya rəhbərliyinə bununla bağlı ciddi təzyiqlər edilib».

E.Namazovun fikrincə, bu, tək bir nəfərə deyil, bütün ziyalılara qarşı başlanmış təzyiq kampaniyasıdır. Təhsil Nazirliyindən isə Rafiq Əliyevin işdən çıxarılmasına münasibət bildirmirlər.

**70-Cİ MADDƏNİN «Ç» BƏNDİ**

Rafiq Əliyevin əmrində onun Əmək Məcəlləsinin 70-ci maddəsinin «Ç» bəndini pozduğuna görə vəzifədən azad edildiyi qeyd olunur. Məcəllənin həmin bəndində deyilir: «işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud əmək vəzifələrini kobud şəkildə pozduqda (72-ci maddə) əmək müqaviləsi ləğv olunur».

Rafiq Əliyev kafedra müdirliyindən uzaqlaşdırılsa da, o, Akademiyada qalır.

***Maarif Çingizoğlu***

# <u>Rafiq Əliyev:</u> «Qavraya bilmirəm ki, Harvardın məzunu türmədədir»

**Ziyalılar Forumunun nümayəndələri Rüstəm İbrahimbəyov, Rafiq Əliyev, Əkrəm Əylisli, Ramiz Rövşən və Eldar Namazov Ədliyyə Nazirliyinə müraciət ediblər. Məqsəd həbsdəki gənc fəallarla görüşə icazə almaqdır. Bu haqda akademik Rafiq Əliyev AzadlıqRadiosuna deyib. Bu müsahibə alimin Neft Akademiyasında işdən qovulmasından öncə alınıb...**

**- Rafiq müəllim, həbsxanada kimlərlə görüşməyi planlaşdırırsız?**

- O adamlarla ki, hüquqi baxımdan buna icazə var.

**- Bəxtiyar Hacıyevlə görüşməyi planlaşdırırdız. Bu, reallaşa bilərmi?**

- O asılıdır, hüquq müstəvisində mümkündürmü? Əlbəttə ki, belə bir arzu var. Mən onu qavraya bilmirəm ki, Harvard Universitetinin məzunu bu gün türmədədir.

**- Noyabrın 4-dəki forumda nələri müzakirə edəcəksiz?**

- Bu dəfə mövzu belədir: «Milli birlik: yollar və şərtlər».

**- Niyə bu mövzunun üstündə durdunuz?**

- Qətiyyən istəmirəm ki, Azərbaycanda kataklizmlər olsun. Vallah, hamımız bunu düşünməliyik ki, iqtidarlı müxalifətli... Mən qətiyyən müxalifət tərəf deyiləm, heç bir partiyanın üzvü də deyiləm. Ziyalılığın ən birinci meyarı ideoloji yükün, borcun olmamasıdır. Onda sənə ideoloji basqılar olacaq. Biz deyirik ki, iqtidar, müxalifət, ziyalı, xalq hamı bir-birini eşitsin. Bu gün heç kim bir-birini eşitmək istəmir.

**«BELƏ OLMAZ!»**

**- Rafiq müəllim, bu ölkədə yaşamaq sizə çətin deyil?**

- Əlbəttə, çətindir. Bu haqsızlıqları görəndə... Mən buna dözə bilmirəm, haqsızlığa dözə bilmirəm. Bu forumların da məqsədi odur ki, deyək: «Belə olmaz». Kim eşidər, eşitməz deyə bilmərəm. Amma mənim üçün dominant məsələ budur: demokratiya üstəgəl əxlaq.

**- XXI əsrdir, elm-texnologiya inkişaf edir, amma əxlaq, lap elə insan azadlıqları kimi məsələlərdə hələ də bəzi cəmiyyətlərin problemləri var. Az qala orta əsrlər səviyyəsində...**



Ziyalılar Forumunun görüşü.
29 sentyabr 2011

- Ola bilər bu, Allahın işidir. O biri tərəfdən də bu gün dünyada səsi eşidilənlər idealistlərdir. Onlar yeni dünya düzümü istəyirlər. Bu ərəb baharı da, ərəb küləkləri də dünyada yeni düzən istəyi ilə bağlıdır. Düşünmürəm ki, neft üstündədir, su üstündədir. Dünya ədalətə hamilədir. Dünya ədalət istəyir. Bəyəm Liviyada insanların dolanışığı pis idi? Yox. Dünyaya bu gün ədalət lazımdır.

**- Azərbaycanda da bu proses gedirmi?**

- Azərbaycan da dünyanın bir parçasıdır. Düşünürəm ki, dünya düzənində yerini tapacaq.




Hər həftənin çərşənbə günü, günorta **saat 12-də** Bakının ictimai və mədəni yaşamı, düşüncə və əyləncə həyatı haqda maraqlı veriliş. **"Can Bakı"nı AzadliqRadiosu.az saytında** da oxuya da bilərsiz. Aparıcı **Sevda İsmayıllı**.

# Rüstəm İbrahimbəyov: «Biz uçuruma gedirik»

**«15-18 il hər şeyə dözüb, öz işimizlə məşğul ola-ola, öz işimizi-peşəmizi ən vacib iş hesab edə-edə ictimai həyata qarışmamışıq. Bu da bizim qüsurumuzdur».**

Bu sözləri dramaturq Rüstəm İbrahimbəyov AzadlıqRadiosuna müsahibəsində



Noyabrın 4-də Ziyalılar Forumunun toplantısı keçirilib

deyib. Noyabrın 4-də Ziyalılar Forumunun toplantısındakı çıxışında da o bir məqama diqqət çəkdi: «15-20 ildir Azərbaycan ziyalısı susur». Forumda isə «Milli birlik: yollar və şərtlər» müzakirə olunurdu.

**- Rüstəm müəllim, siz milli birliyin yolunu nədə görürsüz?**

- Milli birliyin yolları da çoxdur, şərtləri də. Mən ancaq onu bilirəm ki, ziyalılarımızın borcu nədir. Milli birlik yaranması üçün bizim borcumuz nədir. Borcumuz xalqın problemlərini, ağrısını cəmiyyətə çatdırmaqdır. Biz hakim deyilik, bizim imkanımız çox azdır. Bizim silahımız ancaq sözümüzdür. 15-20 ildir ki, Azərbaycan ziyalıları susurlar. Mən beş-altı il bundan əvvəl demişdim ki, Azərbaycanda ziyalı yoxdur. O mənada yoxdur ki, bir siyasi qüvvə, ictimai qüvvə kimi ziyalı təbəqəsi yoxdur, yəni yoxa yaxındır. Çünki susur. Bu milli birlik, milli həmrəylik, milli barış ona görə lazımdır ki, ədalətli, vicdanlı cəmiyyət yaradaq. Bunları əldə etmək üçün ziyalılar heç nədən qorxmadan vicdan borcunu həyata keçirməlidir, heç nədən qorxmadan! Ağızdolusu həqiqəti danışmalıdır.

**«SUSMAQ EYBİMİZDİR! QÜSURUMUZU DÜZƏLTMƏLİYİK!»**

**- Rüstəm müəllim, sizcə, Azərbaycan ziyalısı 15-20 ildir niyə susur? Onu susdurublar, yoxsa könüllü halda susur?**

- İctimai proseslər yavaş-yavaş «xoda» salınır. Əvvəl siyasətlə məşğul olanlar çıxırlar ön sıraya. Ziyalılar isə siyasətlə məşğul olmurlar. Hamımız öz işimizlə məşğuluq. Siyasətçilərin arasında da ziyalı çox idi. Mən isə o ziyalıları deyirəm ki, siyasətdə deyillər. Hərəsi öz peşəsi ilə məşğuldur. İndi cəmiyyətimiz elə həddə çatıb ki, biz uçuruma gedirik, daha susmaq olmaz. Biz istəmirik ki, xalqımız, ölkəmiz, hökumətimiz inqilab yolu ilə uçuruma getsin. Biz danışmalıyıq. Daha biz axırıncı həddə çatmışıq. Susmaq bizim eybimizdir. 15-18 il hər şeyə dözüb, öz işimizlə məşğul ola-ola, öz işimizi-peşəmizi ən vacib iş hesab edə-edə ictimai həyata qarışmamışıq. Bu da bizim böyük qüsurumuzdur. Bunu da indi düzəltməliyik.

**- Necə bilirsiz, eşidəcəklərmi sizi ziyalılar?**

- Məni heç o maraqlandırmır. Eşidəcəklərmi, nəticəsi olacaq, olmayacaq, məqsədimizə çatacağıq-çatmayacağıq... Məni maraqlandırır mənim vicdanım. Mən bunu deməliyəm. Nə olar olar.

**- Forumda milli birlikdən danışanda çox şeyə toxundular: ədalətli seçkilər, korrupsiyaya...**

- Şərtləri çoxdur. Cavab da oldu ki, bu mühitdə seçki necə keçirilə bilər? Azərbaycanda əməlli-başlı təmiz seçki keçirilə bilməz. Camaatı pulla alacaqlar.

**- Nə dəyişməlidir? Sistem?**

- Mən dedim də...

***Şahnaz Bəylərqızı***



Günün ən vacib hadisələri **AzadlıqRadiosunun** müxbirlərinin reportajlarında. Aktual müsahibələr və ekspertlərin analizləri. Hər gün **saat 20.05-dən 20.35-dək.**



# Bir ildə ərzaq 20 faizə qədər bahalaşıb

**Dünya Bankının noyabrın 2-də yayılan hesabatına görə, dünyanın əksər ölkələrində ərzaq məhsullarının qiyməti yüksək olaraq qalır. Bu isə kasıb ölkələrə çox güclü zərbədir və qlobal iqtisadi vəziyyəti daha da gərginləşdirir. 20 ölkədə ərzağın qiyməti son bir ildə xüsusilə kəskin şəkildə - 86 faiz qalxıb. Dünya Bankının bu hesabatının açıqlanması "Böyük 20-lər"in Fransanın Kan şəhərindəki sammitindən əvvələ təsadüf edir.**

Hesabatda deyilir ki, ərzaq qiymətləri ilə bağlı indeks bu ilin fevral ayında pik həddə çatmış göstərici ilə müqayisədə 5 faiz aşağı düşüb. Amma yenə də ərzağın qiyməti ötən ilin sentyabr ayı ilə müqayisədə 19 faiz yüksəkdir.

# Nikah yaşı qaldırılır

Azərbaycanda əksər ailələr qadınlar üçün nikah yaşının 17-dən 18-ə qaldırılmasının tərəfdarıdır. Bunu jurnalistlərə Milli Məclisin Sosial Siyasət Komitəsinin sədri Hadı Rəcəbli deyib. «Ailə quracaq qız gərək məktəbi bitirsin, fizioloji, bioloji cəhətdən hazır olsun», - deyə o bildirib. Komitə sədri qeyd edib ki, dünyanın 135 ölkəsində nikaha məhz 18 yaşdan icazə verilir. Milli Məclisdə Ailə Məcəlləsinə təklif olunan dəyişikliyə əsasən, qadınlar üçün nikah yaşı 17-dən 18-ə qaldırılır. Həmçinin qadını nikaha məcbur edən şəxslər cinayət məsuliyyətinə cəlb olunacaqlar.

***Trend***

# Новые компании Алиевых




Родственники президента Азербайджана Ильхама Алиева создали в октябре сего года новые коммерческие структуры, передает информагенство Turan со ссылкой на данные Министерства налогов страны. В этой структуре проходят государственную регистрацию коммерческие юридические лица. Джалал Алиев - дядя президента - соучредил ООО "Az-Invest Co. Ltd". О его доли в компании не сообщается. Компаньоном Джалала Алиева является Садияр Зейналов, с кем он судился в начале текущего года из-за нескольких компаний ("Sahibtac", "Azinvest Co.", "Ayrza") и многомиллионных денежных средств. Суд завершился в пользу Алиева.

Ильгар Алиев - двоюродный брат президента - учредил в октябре дочернюю компанию "Xezer Sunbul Ltd" - ООО "Xezer-Sunbul-2011 Ltd" - и лично возглавил эту компанию. Троюродный брат президента Джомард Алиев и его сын Нуран учредили компанию "AzAlt Energy". Джомард Алиев - зампредседателя Государственного комитета по ценным бумагам.

В Азербайджане данные государственной регистрации коммерческих юридических лиц стали открытыми с января 2009 года.

# У 34 000 пенсионеров пенсии меньше прожиточного минимума

"Бюджет отраслей социального назначения в следующем году существенно превысит нынешние показатели". Это заявил на заседании парламентского Комитета социальной политики председатель Государственного фонда социальной защиты населения (ГФСЗ) Салим Муслимов, передает Turan.

Он привел расчеты, дающие основание полагать, что в следующем году бюджет возглавляемого им фонда составит 2 млрд. 454,3 млн. манат, что на 288 млн. манат больше уровня этого года. По его словам, это связано с реальном ростом экономики: "В 2012 году предусматриваются также отчисления в ГФСЗ из государственного бюджета - 691 млн. манат. В следующем году количество пенсионеров увеличится на 43 1000 и составит 1 млн. 781 тыс. человек".

Согласно цифрам, приведенным главой ГФСЗ, сегодня в Азербайджане всего 34 тыс. пенсионеров получают пенсии ниже законодательно определенного прожиточного минимума (95 манат). Именно столько людей преклонного возраста имеют стаж ниже 6 лет, требуемых для прибавки к базовой части пенсии страхового наложения.

# Как армяне курдов выгоняли

Сирийский кризис все более ощущается в Ливане. Его отголоском стало начавшееся изгнание курдов из окраинных районов Бурдж Хаммуда - "армянской столицы" страны. Как пишет "Аш-Шарк аль-Аусат", дашнаки поколотили в минувшую пятницу участников курдской демонстрации, состоявшейся у посольства Сирии в Бейруте, когда те вернулись в армянский пригород.

Депутат парламента и один из местных вождей дашнаков Агоп Пакрадунян заявил, что "курдский и армянский народы имеют общую богатую историю борьбы". Что касается "возмутителей спокойствия" из числа поденщиков, то, по словам Пакрадуняна, "их антиморальное поведение стало в последнее время беспокоить жителей, которые намерены избавиться от подобного соседства".

Адвокат Набиль аль-Халяби - один из представителей "координационных комитетов сирийской революции в Ливане" - сообщил, что принудительное выселение из Бурдж Хаммуда грозит 10 тысячам курдов и призвал ливанскую общественность "к защите курдского населения, выступающего против правления Асада".

# «Эмиграция из Армении катастрофична»

**ПЕРЕПИСЬ НАСЕЛЕНИЯ В АРМЕНИИ**

По данным переписи населения 2001 года, постоянное население в Армении составляло 3 миллиона 213 тысяч человек, и, согласно текущим данным Нацстатслужбы по состоянию на 1 июля 2011 года, численность постоянного населения Армении составляет 3 миллиона 266 тысяч человек, то есть, согласно Нацстатслужбе, за последние 10 лет численность населения в Армении увеличилась на около 53 тысяч человек и всего лишь на 38 тысяч человек меньше числа постоянного населения по данным 1989 года, когда была проведена последняя перепись населения в советской Армении.

Между тем, не секрет, что в Армении имеются сомнения относительно официальных данных по количеству населения и, в частности, в отношении достоверности результатов переписи. То есть, существуют мнения, что в действительности в республике проживает гораздо меньше людей, чем это представляется официально.

**В АРМЕНИИ ЖИВЕТ ГОРАЗДО МЕНЬШЕ ЛЮДЕЙ**

Соавтор последнего годового отчета ООН «Миграция и человеческое развитие в Армении», этнограф Агаси Тадевосян отметил, что что реальная картина в Армении такова, что за последние годы многие покинули страну. Ситуация катастрофична по нескольким аспектам: по общей численности населения, рождаемости, но, при всем при этом, также по демографической структуре - то есть, пропорция пожилых людей, молодежи, людей среднего поколения и детского возраста была коренным образом нарушена.

***Элина Чилингарян***
***(Радио Азатутюн)***

**На сайте РадиоАздлыг - radioazadlyg.org:**

- **Почему топ-менеджера "АвтоВАЗ"а не пустили в Баку?**
- **Шансы-2013 Мехрибан Алиевой и демократический Иран-2016**

# 3500 erməni Avropadan Dağlıq Qarabağa köçəcəkmi?


Şuşa

**"Ermənistan 3500" layihəsinin iddialı məqsədi var: Qərbdə yaşayan 3500 erməni mənşəli vətəndaşı Ermənistana və ya Dağlıq Qarabağa köçüb gəlməyə inandırmaq. Bu, internetlə aparılan özəl layihədir. Azərbaycanda bəzilərinə qəribə gələ bilər ki, hər cür şəraiti olan Qərb ölkəsinin vətəndaşı Dağlıq Qarabağa köçüb gələ bilərmi? Çünki Ermənistanın və Dağlıq Qarabağın özündən ermənilər iş dalınca Rusiyaya və ya imkanı olan elə həmin Qərb ölkələrinə gedir.**

Ancaq "Eurasia View" yazır ki, internetdə bu layihəni başlayanlar elə Ermənistana və Dağlıq Qarabağa köçənlərdir. Bu adamlar 30 nəfərlik təşəbbüs qrupu da yaradıblar. Ancaq maraqlıdır ki, layihənin rəhbərləri adlarını mediaya bildirmək istəmirlər.

Layihənin məğzini isə belə izah edirlər ki, köçüb gələnlər özləri ilə yeni ideyalar gətirə bilər. Məşğulluğu, investisiyaları və islahatları canlandıra bilərlər. Ermənistana 10 il əvvəl köçmüş amerikalı Madlene Minassian deyir: "Mən doğrudan da inanıram ki, burda maqnetik nəsə var".

**STATİSTİKA NƏ DEYİR?**

ABŞ, Britaniya, Almaniya kimi ölkələrdən Ermənistana köçən çoxdurmu? Bu məsələyə çox bədbin yanaşan Kaliforniya Universitetinin erməni tədqiqatları proqramının direktoru Stepan Astorian deyir: "Ermənistan müstəqil olandan Ermənistana köçənlər minimaldır. 5 mindən 10 minə kimidir. Ancaq dəqiq statistika yoxdur".

Əvəzində başqa statistika var. BMT-nin İnkişaf Proqramının rəqəmlərinə görə, 1991-ci ildən Ermənistanı 1 milyon 300 min adam tərk edib. Köçüb gələnlərin problemləri də yaranır. 2004-cü ildə Parisdən Şuşaya köçən Armen Rakedjian deyir ki, burda əmlak mübahisəsinə görə, 50 min dollar pul itirdi. O deyir ki, məsələni yoluna qoymaq üçün rüşvət vermək lazım olduğunu bilmirdi. Bununla belə o, Şuşada qalıb. Bunu isə belə izah edir: "Fransada qalsaydım, mənim təminatım yoxdur ki, uşaqlarım böyüyəndə erməni olaraq qalacaqdılar".

Kaliforniya ştatının Ventura şəhərciyindən Yerevana köçən diş həkimi Victor Sargissian isə bu yay yenidən ABŞ-a qayıdıb. Onu qayıtmağa vadar edən maliyyə çətinlikləri olub. Ermənistana müvəqqəti getməyi təklif edən təşkilatlar da var.

Pensilvaniya ştatında qərarlaşan "Birthright Armenia" qrupu könüllülərə təklif edir ki, qısa müddətə Ermənistana getsinlər.

***Elxan Nəsibli***





Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. Saat 17-dən 19-dək. **AzadliqRadiosu.az** saytından verilişə canlı da baxa bilərsiniz. Verilişlərin səs arxivinə **AzadliqRadiosu.az** saytında sonradan da qulaq asa bilərsiniz.

**Veriliş zamanı suallarınızı verin:**
**SMS:** (+994 50 744 10 17)
**Telefon:** 436 – 77 - 41
**Elektron ünvan:** efir@azadliqradiosu.az



Koray Tarqay

# ATƏT-in Bakı ofisinin rəhbəri: «İqtidar və müxalifətdən dialoq təşəbbüsü yoxdur»

Azərbaycanda iqtidar-müxalifət dialoqunun başlanması üçün tərəflərdən hər hansı müraciət yoxdur. Bunu ATƏT-in Bakı ofisinin rəhbəri Koray Tarqay deyib. K.Tarqay bildirib ki, tərəflərin istəyi olarsa, ATƏT bunun baş tutması üçün imkanlarını səfərbər edər. ATƏT-in Bakı ofisinin rəhbəri hesab edir ki, dialoqun baş tutması üçün tərəflərin istəyi olmalıdır. Çünki ATƏT dialoqun baş tutması üçün tərəf kimi iştirak etmir.

***Trend***

# Metyu Brayza xarici investorları Ağcabədiyə sərmayə qoymağa çağırıb

Noyabrın 3-də ABŞ-ın Azərbaycandakı səfiri Ağcabədi rayonuna səfər edib. APA-nın məlumatına görə, səfir Ağcabədi Rayon İcra Hakimiyyətində rayon rəsmiləri ilə görüşüb. Daha sonra Ağcabədidə yerləşən Aqro İnformasiya Mərkəzində olan Metyu Brayza jurnalistlərə açıqlama verib. Səfir deyib ki, bölgəyə səfəri burada kənd təsərrüfatının vəziyyətini öyrənmək, bu sahənin inkişaf imkanlarını araşdırmaq və Taxtakörpü qəsəbəsində məskunlaşan laçınlı fermerlərin fəaliyyəti ilə yaxından tanış olmaq məqsədi daşıyır.

Səfir xarici investorların bölgəyə sərmayə yatırmasında maraqlı olduğunu bildirib: «Mən əsasən xarici ölkələrdən olan iş adamlarını Azərbaycanın bu bölgəsinə investisiya qoymağa çağırıram. Çünki burada kənd təsərrüfatı sahəsinin inkişafı üçün böyük potensial mövcuddur.

# Prokuroru Youtube-a nə çıxardı?


Tofiq Ağacanov

**Ötən həftəsonu Tofiq Ağacanov «Youtube» sosial şəbəkəsi vasitəsilə ölkə prezidentinə müraciət edib, pozulmuş hüquqlarının bərpasında kömək istəyib. Sonuncu iş yeri Abşeron Rayon Prokurorluğu olan T.Ağacanov deyir ki, baş prokuror Zakir Qaralov onun Fərda Qədirovla qohumluq əlaqələri olmasını səbəb gətirərək 2 il 4 ay əvvəl prokurorluq orqanlarından xaric edib: «Fərda Qədirov mənə qohum hesab edilə bilməz. 15 il bundan əvvəl mənim ögey qardaşım onun bacısını boşayıb. Bundan sonra bizim heç bir münasibətimiz olmayıb».**

Gürcüstan vətəndaşı olmuş Fərda Qədirov 2009-cu il aprelin 30-da Dövlət Neft Akademiyasında 12 nəfərin ölməsi, 13 nəfərin yaralanması ilə nəticələnən qətl törətmişdi.

Baş Prokurorluğun mətbuat xidmətindən AzadlıqRadiosuna bildirilib ki, Abşeron rayon prokurorunun böyük köməkçisi işləmiş Tofiq Ağacanov Fərda Qədirovla qohumluq əlaqəsində olmasına baxmayaraq onunla bağlı məlumatları istintaqa verməyib. Prokuror vəzifəsi ilə bir araya sığmayan və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verdiyinə görə, o, Baş Prokurorluq üzrə 1 iyun 2009-cu il tarixli əmrlə prokurorluq orqanlarından xaric edilib.

### «BU, ABSURDDUR VƏ QANUNAZİDDİR»

T.Ağacanov deyir ki, 15 il əvvəl ailələr arasında münasibətlər pozulandan sonra Qədirovlarla əlaqə də itib: «. Yəni mən gəlib Qaralova məlumat verəndə o məndən soruşacaqdı ki, atası, anası, qardaşı hardadır? Mən gərək ona lazımlı olan məlumatı verəydim axı, məndə isə bu məlumatlar yox idi».

T.Ağacanovun sözlərinə görə, özünün əlaqəsi olmasa da, Qədirovlar barədə məlumatı olan qohumlarına bu barədə istintaqa məlumat vermələrini tapşırıb: «Onlar Baş Prokurorluğa getdilər, Fərdanın valideynlərinin harada yaşaması barədə məlumat verdilər. Əməliyyat qrupu Rusiyaya ezam olundu, Fərdanın atasını, anasını, qardaşını tapıb ifadələrini aldılar».

### FƏALİYYƏTİ QISA VAXTDA 6 DƏFƏ YOXLANILAN PROKUROR MÜAVİNİ

Tofiq Ağacanovun sözlərinə görə, 1992-2000-ci illərdə Sabunçu Rayon Prokurorluğunda prokuror vəzifəsində işləyərkən Zakir Qaralov həmin prokurorluğa prokuror vəzifəsinə təyin olunub. Bir müddət birlikdə çalışıblar. Münasibətləri normal olub. Ancaq Qaralov baş prokuror təyin olunandan sonra, sanki «aralarından qara pişik keçib». Bunun səbəbini özü də bilmir. Deyir Qaralov baş prokuror təyin olunan kimi onun fəaliyyəti nə az, nə çox, düz 6 dəfə yoxlanıb.

### İŞDƏN ÇIXARILIB, ƏMRİN SURƏTİNİ ƏLDƏ EDƏ BİLMİR

Onun sözlərinə görə, 2 ildən artıqdır ki, prokurorluq orqanlarından xaric edilib, ancaq hələ də ona baş prokurorun əmri verilməyib. Buna görə də o, pozulmuş hüquqlarını məhkəmə müstəvisinə çıxara bilmir. Deyir «elə əmrin surətini də mənə ona görə vermirlər».

***Esmira Cavadova***

# Şikayətiniz varmı?

**“Qaynar Xətt” dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. Telefon 436 77 41, yaxud AzadliqRadiosu.az saytına daxil olub əlaqə saxlayın.**

**Problemlərinizi bütün ölkə eşitsin!**





Sabine Freizer

# «Növbəti iki ildə Qarabağ münaqişəsinin həllində ciddi irəliləyiş gözlənilmir»

**«Prezidentlərin Kazan görüşünə qədər ümidlər var idi ki, ən azı hər iki tərəf ümumi prinsiplərdə qarşılıqlı razılığa gələcək. Təəssüflər olsun ki, beynəlxalq ictimaiyyət, eləcə də Azərbaycan cəmiyyəti Kazan görüşünün nəticəsindən çox məyus qaldı. Həqiqətən də Kazan görüşünün nəticələri məyusedici oldu». Bunu Beynəlxalq Böhran Qrupunun Avropa proqramlarının direktoru Sabine Freizer Bakıda jurnalistlərə açıqlamasında deyib.**

Türkiyənin Dağlıq Qarabağ danışıqlarındakı roluna toxunan S.Freizer Ankaranın münaqişənin həlli ilə bağlı çox maraqlı ideyalarının olduğunu bildirib: «Lakin Türkiyənin Ermənistanla sərhəd problemi var, bu səbəbdən çətinliklər yaşanmaqdadır. Türkiyə Dağlıq Qarabağ danışıqlarına hər hansı töhfə vermək, prosesə müsbət tərəfdən qoşulmaq istəyirsə, ilk növbədə Ermənistanla münasibətlərini normallaşdırmalıdır».

S.Freizer növbəti iki ildə münaqişənin həlli istiqamətində ciddi irəliləyiş gözlənilmədiyini vurğulayıb: «Qarşıdakı iki ildə həmsədr ölkələrdə - Rusiya, ABŞ və Fransada seçkilər keçiriləcək. Buna görə də hesab edirəm ki, danışıqlarda hər hansı canlanmanın olması ehtimalı çox azdır».

Ekspert Ermənistanın da seçki ərəfəsində olduğunu xatırladıb, müharibəyə hazırlığın isə ritorika kimi göründüyünü deyib.

***apa***

# 40 manatlıq texniki baxış neçəyədir: bizim gördüklərimiz...


Texniki Müayinə Mərkəzinin boş xəzinəsi

**Bakıda avtomobillərin illik texniki baxışdan keçirilməsi ilə məşğul olan Dövlət Yol Polisinin idarəsi Xırdalandan Maştağa şosesinin üzərinə köçürülüb. Bu ilin əvvəlindən prezidentin göstərişi ilə əksər dövlət qurumlarında, xüsusilə də yol polisi orqanlarında antikorrupsiya tədbirlərinin gücləndirilməsi haqqında rəsmi xəbərlər dolaşır. Amma bu Müayinə Mərkəzində əvvəllər Xırdalanda olduğu vaxt gördüyümüz problemlərin elə yeni ünvanda da təkrar edildiyinə şahid olduq. Elə Xırdalanda olduğu kimi, burada da sürücülərdən rüşvət tələb edilməsi haqda şikayətlər, polisdən isə bu şikayətlərin yalan olması barədə and-aman eşitdik.**

**SÜRÜCÜLƏRDƏN EŞİTDİKLƏRİM...**

- Məndən 60 manat aldılar.

**- Bəs, nə qədər verməli idiniz?**

- Qanuni mən 40 manatdan az rüsum ödəməli idim. Müayinə göstərmişdi ki, maşınımda hər hansı problem yoxdur. Amma 2-ci otaqda məndən 60 manat aldılar.

**ÖZ GÖRDÜKLƏRİM...**

Yeni müayinə mərkəzi 12 bölmədən ibarət olsa da, biz orda olanda həmin bölmələrdən 6-sı işləyirdi. Maşın sahibləri isə bu qədər bölmə olduğu halda uzun növbələrin yaradılması səbəblərini başa düşmədiklərini deyirdilər. Avtomobillərini kompyuter vasitəsilə müayinədən keçirənlər qəbz alıb bir otağa daxil olurlar ki, avtomobillərin texniki vəziyyətini əks etdirən vərəqi əldə eləsinlər. Bu vərəqi almaq avtomobil sahibinə 2 manatdan 5 manata qədər pula başa gəlir.

Amma həmin pulu verənlərə nə qəbz verilir, nə də pulun nəyə görə alındığı izah edilir. Vətəndaşların uzun-uzadı növbəyə durduğu həmin otaqda heç kimin ağlına gəlmirdi ki, soruşsun: bu pulu nəyə görə alırlar? Hər halda 10-15 dəqiqə ərzində beləsinə rast gəlmədim. Həmin otağın bir tərəfində şüşənin üzərinə iri qızılı hərflərlə "XƏZİNƏ" sözü yazılsa da, pulu sürücülərdən həmin xəzinədə yox, başqa otaqlarda alırdılar. Sonradan sürücülər digər otaqlara baş çəkib, avtomobilin illik müayinə kartını alırlar.

**İQTİSADÇIDAN EŞİTDİKLƏRİM...**

İqtisadçı Zöhrab İsmayılla da müayinə mərkəzində rastlaşdım. Məlum oldu ki, 2-ci dəfədir mərkəzə gəlib. Dediyinə görə, birinci dəfə ona avtomobilində bəzi problemlər olduğu deyilib. O digər bir ünvanda avtomobili yoxlatdırsa da, hər hansı problem qeydə alınmayıb. Buna baxmayaraq, ona yenə də maşınında problem olduğu bildirilirdi. Kompyuter müayinəsinin başında əyləşən əməkdaş isə "bunu biz demirik, kompyuter göstərir" deməklə Zöhrab İsmayılla razı olmadığını bildirirdi.


Zöhrab İsmayıl

Zöhrab İsmayıl isə hesab edir ki, hər maşında bir problem göstərmək əslində onların sahiblərindən əlavə pul almağa hesablanmış bəhanədir. Onun sözlərinə görə, çoxları həmin problemlərin həllinin vaxt aparacağını görüb əlavə pul verməyə razı olur: "Burda yalnız o adamları yoxlayırlar ki, onlar rüşvət vermirlər".

Zöhrab İsmayıl ən ciddi problemlərin maşının müayinədən keçməsindən sonra onun sahibinin otaq-otaq göndərilməsi zamanı baş verdiyini deyir: "Həm 2-ci otaqda, həm də 7-ci otaqda heç avtomobilini müayinə mərkəzinə gətirməsən belə "texniki baxış"dan keçmək mümkündür. Əlbəttə, əlavə pullar ödəməklə. Əgər sən avtomobilini bura gətirmisənsə, müayinənin nəticəsindən asılı olmayaraq, rüsumdan başqa, 25-30 manat əlavə pul alınır. Ümumiyyətlə, bu mərkəzdə xəzinə olsa da, bir nəfər ora pul ödəmir. Bütün pullar 2-ci və 7-ci otaqda nağd ödənilir".

**POLİS İDDİALARI TƏKZİB EDİR**

Müayinə Mərkəzində 2-ci və 7-ci otaqda nə baş verənləri izləyə bilməsək də, sonradan Baş Dövlət Yol Polisinin şöbə rəisi Kamran Əliyevlə söhbətləşdik. O, rüsumdan artıq pul alınması ilə bağlı sürücülərin iddiaları ilə bağlı deyir ki, həmin pul rüşvət yox, texniki müayinəyə gecikdikləri üçün onlardan alınan cərimələrdir:

- Yəni bir çox avtomobillər oktyabra qədər olan vaxtı (nəqliyyat vasitələrinin texniki müayinəsi üçün vaxt oktyabrın 31-də bitirdi - müəl.) ötürüblər. Buna görə də əlavə cərimə olunurlar.

**- Kamran müəllim, amma sürücülər demədilər ki, onlardan artıq alınan pul cərimədir....**

- Bəs, cəriməni başqa nəyə görə edirlər?

**- Avtomobilini müayinədən keçirənlərin əlində pul və sənəd var idi. Yəni otaqların qarşısında duran adamların əlində pul olmalıdırmı?**

- Xeyr. Xəzinə var, ora ödəsinlər. Yol vergisini də, müayinəyə görə rüsumu da, cərimələri də hamısını həmin xəzinəyə ödəməlidirlər.


Kamran Əliyev

Kamran Əliyev deyir ki, otaqlara girəndən sonra adamları xəzinəyə də göndərirlər. Onun sözlərinə görə, sadəcə, sürücülər sənədi də, pulu da bir yerə verməyə öyrəşib. Gedib pulu xəzinəyə ödəyib qəbz gətirməyi isə, sadəcə, özlərinə əziyyət sayırlar.

**AzadliqRadiosu.az saytında bu yazıya aid vodeolara baxa bilərsiniz. Xarici ölkələrdə texniki baxış necə həyata keçirilir? Bu haqda 11-ci səhifədə oxuyun.**

***Maarif Çingizoğlu***

# Xarici ölkələrdə maşınlara texniki baxış şərtləri

**Bakıda maşınlarını texniki baxışdan keçirən sürücülərin üzləşdikləri problemləri daha öncəki səhifədəki reportajda təsvir etdik. Bu mərkəzdən lazımi sənədi almaq üçün kimi günlərlə vaxtını, kimi qızıl dəyərində əlaqələrini, kimi də pulunu sərf edirdi. Maşını olan hər kəsin ildə bir dəfə məcburi şəkildə yaşamalı olduğu bu əsəbi prosesin başqa ölkələrdə necə və neçəyə başa gəldiyi ilə maraqlandıq. Sən demə, Azərbaycanın şimal qonşusu olan Rusiyada da maşının texniki baxışdan keçməsi Azərbaycandakından o qədər də fərqlənmir. Bu ölkədə də jurnalistlər dünyanın başqa ölkələrində texniki baxışın necə aparılmasını araşdırıblar. Gəldikləri nəticə belədir: inkişaf etmiş ölkələrdə maşının texniki baxışdan keçirilməsi bərbərxanaya getmək kimi sadə bir iş imiş.**

Onların uzun araşdırmalarının qısa nəticələri aşağıdakı cədvəldə göstərilib:

Avtomobilin yaşı: 1 il | 2 il | 3 il | 4 il | 5 il | 6 il | 7 il | 8 il | 9 il | 10 il | 10 il +

| Ölkə | TEXNİKİ BAXIŞDAN KEÇMƏ TEZLİYİ | | | | | | | | | KİM KEÇİRİR |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| FRANSA | Yoxdur | 2 ildə 1 dəfə | 2 ildə 1 dəfə | 2 ildə 1 dəfə | İldə 1 dəfə | | | | | Dövlət lisenziyası almış özəl şirkətlər |
| İSPANİYA | Yoxdur | 2 ildə 1 dəfə | 2 ildə 1 dəfə | 2 ildə 1 dəfə | İldə 1 dəfə | | | | | Dövlət lisenziyası almış özəl şirkətlər və rəsmi dillerlər |
| ALMANİYA | Yoxdur | 2 ildə 1 dəfə | 2 ildə 1 dəfə | 2 ildə 1 dəfə | 2 ildə 1 dəfə | | | | | İctimai Sertifikasiya Təşkilatından (TUV) lisenziya almış özəl şirkətlər |
| B.BRİTANİYA | Yoxdur | İldə 1 dəfə | İldə 1 dəfə | İldə 1 dəfə | İldə 1 dəfə | İldə 1 dəfə | İldə 1 dəfə | İldə 1 dəfə | İldə 1 dəfə | Nəqliyyat Nazirliyi və «İngilis avtoklubu» ictimai təşkilatı (öz üzvləri üçün) |
| ABŞ | 13 ştatda texniki baxış məcburi deyil. Başqa ştatlarda isə - hər il və ya 2 ildən bir | | | | | | | | | Özəl şirkətlər |
| YAPONİYA | Yoxdur | 2 ildə 1 dəfə | 2 ildə 1 dəfə | 2 ildə 1 dəfə | 2 ildə 1 dəfə | | | | | Müstəqil Texniki baxış agentliyi |

# Norveç qəhrəmanı Azərbaycan qəhrəmanına necə çevrildi?

«Biz bu konfransla Azərbaycanda məşhurlaşmış tanınmış bir Norveç qəhrəmanını-Thor Heyerdahlı yad etmək istəyirdik». Bu sözləri AzadlıqRadiosunun «Can Bakı» proqramına ötən həftə Bakıda keçirilən Thor Heyerdahl konfransının təşkilatçılarından Christer Daatland söylədi.

### NƏDƏN BAKI?

Cənab Daatland aparıcının: «Konfrans üçün məkan nədən Bakı seçildi» sualını belə cavabladı: «Bu da Thor Heyerdahlın tədqiqatlarından qaynaqlanır. Çünki sonuncu böyük tədqiqatı məhz Azərbaycanla bağlı idi. «Odinin axtarışı» adlı kitabında o belə bir nəzəriyyə irəli sürdü ki, Skandinaviya və Qafqaz regionu, o cümlədən Azərbaycan arasında ta qədimdən mədəni əlaqələr olub. Bu sonuncu kitab onun ölümündən bir ay əvvəl çıxmışdı. Bir az da yaşasaydı, bu məsələlərlə daha dərindən məşğul ola bilərdi, tədqiqatlar aparardı».

### AİLƏ ÜZVLƏRİ DƏ KONFRANSA QATILDILAR

Verilişin digər qonağı «Azerbaijan International» jurnalının baş redaktoru Betty Blair konfransa xüsusi çalar verən faktdan danışıb: «Konfransda Thor Heyerdahlın ailə üzvləri də iştirak edirdi. Həyat yoldaşı Jacqueline Heyerdahl və böyük oğlu Thor Heyerdahl. Oğlu Azərbaycana ilk dəfə gəlirdi, amma xanımı əri ilə üç dəfə bu ölkədə olmuşdu—1994, 1999 və 2000-ci illərdə».

**-Thor Heyerdahl kim idi? Onun özəlliyi nə idi? Norveç qəhrəmanı onu dünyada məşhurlaşdıran**



Christer Daatland

**səfərlərə necə başladı?**

**-Thor Heyerdahlı Bakıya nə bağlayırdı?**

**-Konfrans iştirakçısı olan norveçli Azərbaycan musiqisi ilə Norveç musiqisi arasındakı oxşarlığı necə üzə çıxardı?**

**Bu sualların cavabını AzadliqRadiosu. az saytından öyrənə bilərsiniz.**

***Sevda İsmayıllı***

# Moskvada "Ruslara azadlıq!" şüarları



Şuşa

## Azərbaycanlılar "Rus marşı" keçirilən yerlərə getməyiblər

**"Bu gün şəhərə çıxmamağa çalışdıq. Millətçilərin yürüş keçiriləcəyi yerlərə getmədik". Bunu Moskvada yaşayan azərbaycanlı jurnalist Tünzalə Vəliqızı AzadlıqRadiosuna deyir. O, noyabrın 4-də Moskvada keçirilən "Rus marşı" adlanan aksiya haqqında məlumatları diqqətlə izlədiyini söyləyir: "Düzdür, deyilənə görə, heç bir toqquşma olmayıb, amma adətən belə aksiyalardan sonra xəbərlər ortaya çıxır ki, filan yerdə filan insident olubmuş..."**

Rusiya polisi də yürüşün dinc şəkildə keçdiyini, hər hansı toqquşma baş verməediyini, 7 minə qədər millətçinin Lüblino rayonunda yürüş etdiyini, "Maryino" metrostansiyası yaxınlığında mitinq və konsert keçirərək dağılışdıqlarını bildirib. Yürüşçülər təbil çalaraq, rus millətini alqışlayan şüarlar səsləndirərək küçələrdən keçiblər. Yalnız bəzi yürüş iştirakçılarından bıçaq, zəncir və tüstü şaşkası müsadirə edilib. Yürüşün önündə "Ruslar" hərəkatının liderləri Aleksandr Belov və Dmitri Dyomuşkin, eləcə də qalmaqallı blogger Aleksey Navalnı gedib.

Təşkilatçılar polisi yürüş iştirakçılarının sayını az göstərməkdə günahlandıraraq aksiyaya 25 min adamın qatıldığını deyiblər. Yürüşçülər "İşğala son qoyun, ruslara azadlıq!" şüarları da səsləndiriblər. Moskvada yaşayan azərbaycanlı jurnalist Tünzalə Vəliqızı isə deyir ki, hər dəfə seçki ərəfəsində millətçilərin fəallaşması hiss edilir. Onun fikrincə, bu, dolayısı ilə hökumətin işidir: "Məncə, bütün bunlar insanların diqqətini ölkədəki sosial-iqtisadi problemlərdən yayındırmağa yönəlib".

O, hesab edir ki, Rusiya mediasında çox vaxt hansısa hadisələr qərəzli olaraq qafqazlıların ayağına yazılır: "Bəzən iki rus dalaşanda da burda qafqazlı barmağı axtarılır".

***Rövşən Qənbərov***

# Azərbaycan hara nə qədər qaz satır?

**Hazırda Azərbaycan 5 ölkəyə milyardlarla kubmetr həcmində təbii qaz ixrac edir. Bunu Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) vitse-prezidenti Elşad Nəsirov bildirib. Bundan 6.6 mlrd. kubmetr Türkiyəyə, 1.5 mlrd. Gürcüstana, 400 mln. kubmetr İrana, 750 mln. kubmetr Yunanıstana ixrac olunur. Həmçinin Azərbaycan Rusiyaya qaz nəql edir.**

Bir qədər əvvəl Azərbaycanla Türkiyə arasında imzalanan sazişə toxunan ARDNŞ rəsmisi bildirib ki, Türkiyə Azərbaycandan ildə 6.6 mlrd. kubmetr qaz alacaq. Çərçivə tranzit sazişinə əsasən isə, Türkiyə ərazisi ilə 10 mlrd. kubmetr Azərbaycan qazı Avropaya nəql olunacaq.

E.Nəsirov deyib ki, Türkiyə ərazisi ilə qazı üç variantda nəql etmək olar: «Birincisi, mövcud infrastrukturu təkmilləşdirmək, ikincisi, «Nabucco», üçüncüsü, Türkiyə ərazisi ilə yeni qaz kəmərini çəkməkdir».

***apa***




"250 plyus" gerçəkliyə fərqli baxışdır. AzadliqRadiosu.az saytında gülüş doğuran və düşündürən videosüjetlərə siz də baxın.

- Qanacaqdoldurma məntəqəsi hardadır?
- Bakıda kütləvi "zəhərlənmə"
- Pula "pul" deməyən hökumət, Aqressiv misiromaniya sindromu 250+da
- "Qəddafinin" nadir arxiv videosu
- Hüsnü Mübarək Bakıda
- Siyasət dilinin "Da Vinçi" kodu


B. Obama və V. Putin

# Birinci Obama, sonra Putin...

**Barak Obama dünyanın ən nüfuzlu adamıdır. «Forbes» jurnalı 2011-ci ildə dünyanın ən nüfuzlu adamlarının növbəti reytinqini açıqlayıb. «Forbes» yazır ki, «əl-Qaidə» lideri Üsamə bin Laden və Liviya diktatoru Müəmmar Qəddafinin ölümündən sonra B.Obamanın nüfuzu daha da artıb. Obama jurnalın ötənilki siyahısına başçılıq edən Çin Xalq Respublikasının sədri Hu Jintaonu geridə qoyub. H.Jintao bu il 3-cüdür. Reytinq cədvəlində 4-cü olan Almaniya kansleri Angela Merkel dünyanın ən nüfuzlu qadını olaraq qalır. Yenidən prezidentliyə iddialı Rusiyanın baş naziri Vladimir Putin dünya nüfuzluları sırasında 2-cidir.**

**QARŞISINA İNFEKSİON XƏSTƏLİKLƏRƏ QALİB GƏLMƏK MƏQSƏDİ QOYAN İNSAN**

«Microsoft»un yaradıcısı Bill Gates isə «Forbes»in siyahısında 5-cidir. Onun xeyriyyə təşkilatının dəstəyi ilə yaxınlarda malyariya peyvəndi klinik təcrübədən keçib: «Gates'in məqsədi infeksion xəstəlikləri insan ölümünün səbəbləri sırasından tamamilə çıxarmaqdır. O, buna müvəffəq ola bilər», – deyə «Forbes» yazır.

«Facebook» sosial şəbəkəsinin yaradıcısı 27 yaşlı Mark Zuckerberg ötənilki 40-cı yerdən bu il 9-cu pilləyə yüksəlib. Reytinqdə Zuckerbergdən əvvəl ABŞ Federal rezerv sisteminin rəhbəri Ben Bernanke, ondan sonra isə Britaniyanın baş naziri Devid Kemeron yer alıb. Dünyanın neft istehsalı üzrə lideri - Səudiyyə Ərəbistanının kralı Abdullah bin Abdulaziz al-Saud dünya nüfuzluları sırasında 6-cı, Roma papası Benedict XVI 7-cidir. 70 nəfərin yer aldığı siyahıda Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın da adı keçir, o, nüfuzuna görə 48-ci pillədə yer alıb.

# Bakı kinoteatr erasının sonunda?


“Nizami” kinoteatrı

**«Mən əvvəllər Bakıdakı bütün kinoteatrlara getmişəm. İndi isə kinoteatrların qarşısından keçəndə bunu deyə bilirəm – vaxtilə burada «Araz» kinoteatrı var idi, vaxtilə burada «Vətən» kinoteatrı var idi... Bir azdan deyəcəyik ki, vaxtilə burada «Azərbaycan» kinoteatrı var idi. Təəssüf ki, bu gün bunların hamısına «vaxtilə» deyirik.» Köhnə bakılı Emil Seyidrzayev deyir ki, uşaqlıq, yeniyetməlik, gənclik dövrlərində Bakıdakı bütün kinoteatrlarda olub.**

**KİNOTEATRLARIN VƏZİYYƏTİ NECƏDİR?**

Bakıdakı kinoteatrların bu gününə gələndə, “Nizami” kinoteatrı 2008-ci ildən təmirdədir. Binanın hazırkı vəziyyətindən görünür ki, təmir qurtarmaq üzrədir. Binada rəhbərlikdən bir kimsə olmasa da, ərazidəki mühafizəçi dedi ki, yaxın günlərdə açılış olacaq. Mədəniyyət ə Turizm Nazirliyinin mətbuat katibi İntiqam Hümbətov AzadlıqRadiosuna bildirdi ki, açılış ilin sonuna planlaşdırılıb. Bina təkcə kinoteatr yox, həm də Beynəlxalq Kino Mərkəzi kimi istifadəyə veriləcək.


Rəhman Bədəlov

Bu günlərdə rəsmən elan olundu ki, «Azərbaycan» kinoteatrı da fəaliyyətini dayandıracaq. Kinoteatr bir neçə ildir özəlləşdirilib. Bağlanma səbəbləri haqqında rəhbərlikdən hər hansı məlumat verilmədi. Kinoteatrdan bir onu dedilər ki, hələ ki, kino göstərirlər. Burdakı qiymətlər 5-7 manat arasında olsa da, bura kinoya baxmağa gələnlər var.

**KİNOTEATR BİNASI, YOXSA BİLYARD ZALI**

Bakıdakı kinoteatrların çayxana, kafe, mebel salonu, bilyard zalı kimi fəaliyyət göstərməsi yeni xəbər deyil. Məsələn, Mədəniyyət və Turizm Nazirliyinin tabeçiliyində yerləşən «Təbriz» kinoteatrında bilyard və kompyuter oyunları zalları fəaliyyət göstərir. Kinoteatrın özünü təqdim etməyən rəsmisi deyir ki:

«Kino göstərmirəm. Ona görə ki, camaat gəlmir. Niyə görə işığımı-zadımı bir nəfər üçün sərf etməliyəm?».

Bakıdakı «Şuşa» və «Qələbə» kinoteatrları keçən il sökülüb. Səbəbləri haqqında məlumat verilməyib. Bircə deyilib ki, bu binalar özəlləşdirilib.

Bakılıların çoxdan tanıdığı «Şəfəq» və «Dostluq» kinoteatrlarında əsasən kino göstərilməsə də , teatr kollektivləri fəaliyyət göstərir. Əhmədlidəki məşhur «Bakı» kinoteatrı da özəlləşdirilən binalar arasındadır.

Elə Mədəniyyət və Turizm Nazirliyinin mətbuat katibi İntiqam Hümbətov da deyir ki, kinoteatr binalarının çoxu 2006-cı ildən özəlləşməyə çıxarılıb və bu sahəyə biznes kimi baxılmalıdır: «Tamaşaçının kinoya baxması üçün normal kinoteatr olmalıdır. Kim gedib indi «Dostluq» kinoteatrında kinoya baxmaq istəyər? Müasir tələblərə cavab verən kinoteatrlar olacaqsa, orada tamaşaçı da olacaq. Bir neçə özəl kino yayım obyektləri var ki, onların tamaşaçısı var. Tamaşaçını kinoteatrlara qaytarmaq üçün özəl sektor bu sahəyə investisiya qoymalıdır. Bu, bir biznes sahəsidir».

**«BAKIDA NORMAL TAMAŞAÇI VAR»**

Kulturoloq Rəhman Bədəlovun fikrincə isə, kinoteatrlara hökumət yardımı olsa, normal fəaliyyət göstərsə, adamlar da gedər: «Kinoteatrlar illərdir təmir olunur, çox nahaq yerə. İşləyə də bilərdilər. Normal kinoteatr, normal qiymətlər olsa, Bakıda normal tamaşaçı var. 7-8 il əvvəl tamaşaçı yox idi. İndi isə var. Hökumət min yerə pul xərcləyir. Ancaq kinoteatra pul ayırmır. Nəsə itib, nəsə formalaşmalıdır.

***Kəbiran Dilavərli***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


ANAR: **"Nazirlərin bir çoxu zənglərimə cavab vermir"**



**“Ruslan və Lyudmila”da masaj salonu və lüt qızlar**


**Ali Məhkəmə Pamuka “yox” dedi**


**Şeksprin əsərlərini əslində başqası yazıb?**


**Amazon.com - kitabxana yaratdı!**

# «Eurovision» seçimləri başladı

**«Eurovision 2012» Mahnı Müsabiqəsində Azərbaycanı təmsil etmək üçün 119 nəfərin mübarizəsi başlandı. Noyabrın 3-dən start götürən ilkin dinləmələrə qatılanlar 3 gün ərzində ifalarını nümayiş etdiriblər. Bu mərhələni keçənlər Milli Seçim turunun əsas mərhələsinə adlayacaq və İctimai TV-nin canlı efirində yarışmağa başlayacaqlar.**

Azərbaycanı «Eurovision 2012» müsabiqəsində təmsil etmək arzusunda olanlar saat 11-dən sonra bir-birinin ardınca İctimai Televiziyaya gəlirdilər. Onlardan biri - Orxan Kərimli AzadlıqRadiosuna deyir ki, bu müsabiqə üçün 2 ildir xüsusi musiqi dərslərinə gedir və bu il Azərbaycanı «Eurovision»da təmsil etməyə tam hazırdır: «Müsabiqədə qalib gəlmək şansım yüksəkdir. Çünki 2 ildir hazırlaşıram».

Aysel Quluzadə isə «Eurovision 2012»də milli musiqiləri rok janrı ilə sintez edərək özü bəstələdiyi mahnıları ifa etmək arzusundadır.

**MİLLİ, YOXSA AVROPA MUSİQİSİ?**

Müsabiqəyə gələnlərin əksəriyyəti bu dəfə müsabiqədə milli musiqi ilə təmsil olunmaq istəyirlər. İştirakçılardan biri - «Bakı Payızı» Müsabiqəsinin laureatı Kamran Abdullayev: «Səhnə tərtibatından tutmuş, nömrələrə kimi hər şey milli olmalıdır».

Aysel Quluzadə: «Mən bu il istərdim Alim Qasımov Azərbaycanı təmsil etsin. Çünki bir dəfə bu müsabiqədə qalib gəlmişik. Artıq Azərbaycanı və onun milli musiqisini təqdim etməliyik».


Eurovision seçimlərinə qatılan Yelena

Noyabrın 3-də keçirilən ilkin dinləmələrdə 40 iştirakçı ifa edib. Münsiflər heyətində isə əməkdar artist Tünzalə Ağayeva, «Eurovision» üzrə musiqi koordinatoru Zəhra Bədəlbəyli, İctimai TV-nin aparıcıları Leyla Quliyeva və Hüsniyyə Məhərrəmova təmsil olunur.

***Nüşabə Fətullayeva***

# Fransız yazıçının Şəkidən apardığı kitab


Yazıçı Aleksandr Düma

**Bu əhvalat XIX əsrin ortalarında, daha dəqiqi 1859-cu ildə Şəkidə baş verib. Bildiyiniz kimi, fransız yazıçısı Aleksandr Düma 1858-59-cu illərdə Rusiya və Azərbaycanda səyahətdə olub. Şəkidə qonaq olarkən şəhərin sayılıb-seçilən ziyalılarından olan tanınmış alim, pedaqoq və kitabşünas Əbdülqəni Nuxəvi Xalisəqarızadə ilə də görüşüb. Yazıçı Əbdülqəni Əfəndidən onun dillər əzbəri olan kitabxanasına baxmaq üçün icazə istəyib, kitabxananın zənginliyindən heyrətə gəlib və bir gün kitabxananı dolaşıb.**

**BU KİTABLARI MƏNƏ SAT!**

Kitabxanada daha nələr yoxmuş?! Xaqani Şirvaninin, Nizaminin, Şəbüstərinin, Xətainin, Nəsirəddin Tusinin, A. Bakıxanovun, Əlişir Nəvainin, Firdovsinin, Hafizin, Ruminin, Şəms Təbrizinin, Sədinin, İbn Sinanın və adını çəkə bilmədiyim neçə-neçə məşhur şəxsiyyətlərin əsərləri... Əbdülqəni Əfəndi kitabxanada olan Azərbaycan və Şərq klassiklərinin əlyazma kitabları haqqında Dümaya geniş məlumat verir. Görüşün sonunda Düma rəngarəng naxışlarla bəzədilmiş, gözəl miniatürləri olan bir neçə nəfis əlyazmanı gətirib stolun üstünə qoyur və Əbdülqəni Əfəndidən bu kitabları ona satmasını xahiş edir.

**«KİTABİ-DƏDƏ QORQUD» DA O KİTABLARIN İÇİNDƏ OLUR**

İşə bir bax! Bizim «Dədə Qorqud» dastanımız da o kitabların arasında imiş. Əbdülqəni Əfəndi məşhur yazıçının xahişini rədd edir. Və bildirir ki, bu kitabxana xalqın elm ocağıdır. Buradan heç bir kitab satılmır. Əgər bu kitablar sizə əsər yazmaq və ya elə-belə oxumaq üçün gərəkdirsə, buyurub istifadə edə bilərsiniz. Doğrudan da, o vaxtlar Əbdülqəni Xalisəqarızadənin zəngin kitabxanasından nəinki Şəki camaatı, hətta ətraf bölgələrdə yaşayanlar da istifadə edirmiş.

**GERİ QAYTARARAM...**

A.Düma kitabları bu kişidən pulla ala bilməyəcəyini başa düşüb nüfuzlu Şəki tacirlərinə üz tutur. Onlar vasitəsilə kitabları alır, qaytaracağına söz verir. Əbdülqəni Əfəndi məşhur yazıçıya istədiklərini verməyə məcbur olur. Ancaq birinə qəti etiraz edir. «Bu kitab yeganə nüsxə olmaqla bərabər elə bir abidədir ki, onun kitabxanadan çıxarılması qeyri-mümkündür»- deyir. O, bu kitabı əzizləyər, ona əl vurmaqdan belə çəkinər və ailə içində nəvazişlə «Qorqudun kitabı» çağrıldığını söyləyərlərmiş: «Oğul, bu kitabı göz bəbəyin kimi qoru».

**KİTABLAR GERİ QAYITMADI**

A. Düma vədinə əməl etmir. Apardığı kitabların heç birini geri qaytarmır. Zavallı Şəki tacirlərini də pis vəziyyətə qoyur. Bu hadisədən sonra 11 il də yaşayır. Və 1870-ci il dekabrın 5-də Fransanın alman ordusu tərəfindən işğalı zamanı dünyasını dəyişir... Aparılan əlyazmaların taleyi qaranlıqdır. Onun harada olmasından bizim xəbərimiz yoxdur. Kim bilir, bəlkə də yazıçının arxivində qorunur? Bilənlər varsa, bizə yazsın.

**DÜMANI SÖYMƏYƏ TƏLƏSMƏYİN...**

Əziz oxucular! Dümanı söyməyə tələsməyin. Səbəbini bilmək istəyirsinizsə, AzadliqRadiosu.az saytında bu mövzunun davamını oxuyun, "İz" verilişini dinləyin.

***Sevda İsmayıllı***

# Qadınlar üçün seks dərsliyi qadağan edilir



**Malayziya hökuməti bir qrup müsəlman qadın tərəfindən hazırlanan seks haqqında kitabı qadağan etməyi planlaşdırır. "İslami seks" adlı kitab Malayziyadakı məşhur Sözəbaxan Qadınlar Klubunun üzvləri tərəfindən hazırlanıb. Dərslik xarakterli bu kitab mağazada satışda olmasa da, onu artıq mindən çox insanın oxuduğu ehtimal olunur. Şəkillərlə bəzədilməyən "İslami seks" kitabı Klubun 56 yaşlı yaradıcısı tərəfindən yazılıb. Bu xanım uzunmüddətli evlilik həyatında üzləşdiyi seks təcrübəsini bölüşür. Kitabda cütlüklərin həm mənəvi, həm də fiziki baxımdan seksə hazırlığına dair məsləhətlər verilir. Müəllif vurğulayır ki, qadınların əksəriyyəti ərlərinin seksə olan tələbatının yalnız 10 faizini ödəyə bilir.**

Malayziyanın İslam işləri üzrə idarəsi 115 səhifəlik kitabı ətraflı tədqiq edib. Nəticədə bu dərsliyi qadağan etmək haqda rəy verib. İdarə rəsmiləri bildirirlər ki, kitabda yazılanlarla müsəlman icmaları tərəfindən tədris edilən dini dərslər arasında uyğunsuzluq ortaya çıxa bilər. Hələlik kitab rəsmən qadağan edilməyib. Amma belə deyilir ki, bu kitabı kimdə tapsalar, həmin adamı yüksək miqdarda – 5000 ringgit (təxminən 1600 dollar) cərimə gözləyəcək. Kitabın surətini çıxarıb yayanlar isə daha ağır cəza – 3 ilik həbs və ya 20 min ringgit (6500 dollar) cərimə ilə üzləşəcəklər.

Sözəbaxan Qadınlar Klubundan isə kitabın yalnız klub üzvləri üçün nəzərdə tutulduğunu deyiblər. Onlar dərsliyin "əxlaqsızlıq yayması" və "qadınları təhqir etməsi" ilə bağlı fikirləri qəbul etmirlər. Müəllif deyib ki, kitab qadınların seksi daha yaxşı anlamasına kömək etməliydi.

Sözəbaxan Qadınların Klubunun 800-ə yaxın üzvü olduğu güman edilir. Artıq təşkilatın xaricdə - İndoneziya, Sinqapur, İordaniya və Böyük Britaniyada filialları yaradılıb. Klub üzvlərinin əksəriyyəti poliqam nikahda yaşayır.

## Lətifə

## Hansı daha demokratik ölkədir, ABŞ, yoxsa Azərbaycan?



Amerikalı və azərbaycanlı kimin ölkəsinin daha demokratik olması üstündə mübahisə edirlər.

Amerikalı: - ABŞ dünyanın ən demokratik ölkəsidir. Məsələn, mən rahatca Ağ Evin qarşısına gedib hamıya Barak Obamanın korrupsioner olduğunu deyə bilərəm.

Azərbaycanlı: - Xeyr, ulu öndərin sayəsində Azərbaycan dünyanın ən demokratik ölkəsinə çevrilib. Məsələn, mən də rahatca Prezident Administrasiyasının qarşısına yaxın bir yerdə ucadan qışqıra bilərəm ki, Barak Obama korrupsionerdir.

# AzadlıqRadiosunda verilişlər:

Unutmayın: Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

**İşdən sonra**
**Can Bakı**
**Xüsusi reportaj**
**Qaynar xətt**
**Həmyerli**
**Tanınmışlar**
**Şəffaflıq**
**14-24**
**İz**
**Panorama**
**Qafqaz Qovşağı**
**Oxu zalı**
**Hər kəsin haqqı var**
**Təbriz Ekspress**

## Daimi rubrikalar













# Simsiz teleqraf

## Mətbuat yayımı belə olar

**Əsl fədakarlıqdır bu...**




Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

HotBird 13$^{0}$E

**Kanalın adı**
Radio Free Europe/Radio Liberty
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

## 24 saat

## necə dinləməli...

42$^{0}$ E

**Kanalın adı**
Azadliq VOA Azeri
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Mobil telefonda canlı

Yeni




## Yeni veriliş: AzadlıqFM

Yeni




## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tblisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email:fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz